Gömrük xidməti hər bir dövlətin müstəqilliyinin əsas atributlarından biridir
Heydər ƏLİYEV

GÖMRÜK XƏBƏRLƏRİ

10 SENTYABR 2021-ci il
№ 25 (1211)

Qəzet 1995-ci il iyunun 30-dan çıxır

CUSTOMS NEWS | Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin orqanı | ВЕСТНИК ТАМОЖНИ

Azərbaycan gələcək hədəflərə doğru uğurla irəliləyir

Qarabağ 30 il sonra həsrətində olduğu ən xoşbəxt günlərini yaşayır, indi burada həyat qaynayır, təbiət canlanır. Əzəli yurdumuz tarixi ədalətin bərpa olunmasının, haqqın öz yerini tapmasının təntənəsini yaşayır.

Bəli, bu illər ərzində ermənilər nə qədər çalışsalar da Azərbaycan xalqının iradəsini qıra, sındıra bilmədilər. Vətənpərvər xalqımız Qarabağı heç zaman qəlbindən silmədi, hər zaman bu torpaqlara qayıdacağının əminliyi ilə yaşadı.

İllər idi ki, başının üzərindən qara dumanlar əskik olmayan doğma yurdumuz işğalçıların talanına məruz qalaraq viranəyə çevrilmiş, gözləri insanlıq cinayətlərinə şahidlik edərək tutulmuş, qulaqları ah-nalə, silah, atəş səsləri eşitməkdən karlaşmışdı.

Mənfur ermənilər bu illər ərzində Qarabağı istismar edib, təbii sərvətlərimizi talayıb, bütün şəhər və kəndlərimizi viran qoyub, evlərimizi söküb, təbitəimizə qənim kəsiliblər. Xüsusilə qeyd etməliyik ki, ermənilər bu iyrənc əməllərə həm 1990-cı illərin əvvəllərində zorla torpaqlarımıza yiyələnmək istəyəndə, həm də 2020-ci ildə Azərbaycanın Rəşadətli Ordusu onları vətənimizdən qovanda əl atıblar.

Avqustun 16-da Kəlbəcər və Laçına səfər edən Prezident İlham Əliyevin də vurğuladığı kimi, vaxt dəyişir, amma erməni faşizminin eybəcər sifəti dəyişmir.

Erməni barbarları milli-mənəvi dəyərlərimizə, dinimizə qarşı da dözümsüzlük, düşmənçilik nümayiş etdirərək qanunsuz şəkildə illərlə işğal altında saxladıqları torpaqlarımızda xalqımıza məxsus bütün dini ocaqları, məscidləri, məzarlıqları, tarixi, mədəni abidələri dağıdıblar.

Statistikaya əsasən, işğaldan azad olunmuş ərazilərdə tarixi-dini abidələrdən 67-si məscid, 139-u məbəd, 192-si ziyarətgah olub. Həmin 67 məsciddən (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 65-i mənfur ermənilər tərəfindən tamamilə, 2-si isə qismən dağıdılaraq yararsız hala salınıb.

Erməni vandalları Azərbaycana məxsus mədəni və dini mülkiyyəti talan və təhqir edib, dəyişdirib və ya qanunsuz olaraq Ermənistana daşıyıblar. İşğaldan azad edilmiş ərazilərdə 100 mindən çox mədəniyyət nümunəsinin olduğu 22 muzey və muzey filialı məhv edilib.

Kəlbəcərə və Laçına səfər edən Prezident İlham Əliyev çıxışı zamanı ermənilərin bu barbar əməlləri ilə bağlı söylədi ki, erməni mifologiyasının biri də o idi ki, guya ermənilər qədim tarixə, mədəniyyətə malikdirlər: "Guya ki, o, Qafqazda mədəniyyətin ocağıdır, beşiyidir, yaxud da son məntəqəsidir. Onların mədəniyyəti, bax, budur. Bax, bu binalardır, qazılmış qəbirlərdir, dağıdılmış məscidlərdir. Bunu hansısa başqa planetdən gələn yadplanetli yox, erməni edib".

Ermənilər insanlığa yaraşmayan, öz adlarına tarix boyu ləkə olacaq bütün bu vəhşi əməlləri törətməklə zorla zəbt etdiyi torpaqları əbədi işğal altında saxlamaq istəyində idilər. Buna görə də bütün vəchlə danışıqları uzatmağa və öz çirkin niyyətlərinə nail olmağa çalışırdılar.

Dövlət başçısı da qeyd etdi ki, indi bilinir ki, onların məqsədi status-kvonu əbədi etmək, Azərbaycana bir qarış olsun belə torpaq qaytarmamaq, məsələni uzatmaq idi: "Onlar öz xarici havadarlarına güvənərək bunu 30 il ərzində həyata keçirirdilər və istəyirdilər ki, bundan sonra da 300 il ərzində bunu həyata keçirsinlər".

Amma mənfur düşmən unudurdu ki, Azərbaycan heç zaman işğalla barışmayacaq və sülh yolu ilə olmasa, müharibə yolu ilə mütləq öz dədə-baba torpaqlarını azad edəcək.

2020-ci ilin 27 sentyabrında həmin müqəddəs gün yetişdi və bütün Azərbaycan xalqı Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğu"na güvənib düşmənin başında şimşək kimi çaxdı. Kükrəyən aslanlara dönüb qəzəb qılınclarını düşmənin bağrına sancan qəhrəman oğullarımız mənfurlara gen dünyanı dar etdilər.

Daha heç bir qüvvə bu faşist xislətliləri qurtarmağa, onlara havadarlıq etməyə qadir deyildi və buna hünərləri də çatmazdı. İgid oğullarımız qətiyyətli Ali Baş Komandanın rəhbərliyi altında ermənilərı döyüş meydanında məhv etdi. Dövlət başçısı İlham Əliyev informasiya savaşında da erməni faşistlərinə havadarlıq edərək yalandan hay-küy salan riyakarları layiqincə susdurdu...

Vətən müharibəsinin qürurlu qələbə ilə bitməsindən çox qısa müddət sonra Qarabağda sürətli yenidənqurma, tikinti və bərpa işlərinə start verilib. Yeni yollar çəkilir, infrastruktur bərpa edilir.

Zəngilanda, Laçında, Füzulidə beynəlxalq hava limanları inşa edilir. Artıq Prezident İlham Əliyevin 9 ay öncə təməlini qoyduğu Füzuli Hava Limanı ilk sərnişin təyyarəsini qəbul edib. Sentyabrın 5-də Bakıdan havaya qalxan "Airbus A340-500" tipli sərnişin təyyarəsi 35 dəqiqə sonra Qarabağın yeni inşa olunmuş ilk hava limanında eniş edib. Bu, həqiqətən qürurvericidir, fəxarətdir. Bu, Azərbaycanın siyasi-hərbi və iqtisadi qüdrətinin göstəricisidir.

Bəlkə də dünyanın heç bir yerində belə qısa müddətdə hava limanı inşa edilməyib. Tarixin qeyri-adi dönüşünün nəticəsidir ki, 9 ay əvvəl Füzuli Hava Limanının tikildiyi ərazi Azərbaycan igidlərinin döyüş meydanı olduğu halda, bu gün həmin cəsur oğullarımızın sayəsində həmin ərazi Qarabağın hava qapısına çevrilib.

Prezident İlham Əliyev yanvarın 14-də hava limanının təməlini qoyanda demişdi ki, bu hava limanının əsas məqsədi xarici qonaqların Şuşaya gəlişini təmin etməkdir. Çünki buradan Şuşaya olan məsafə o qədər də böyük deyil. Qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gələrək çox rahat və qısa müddət ərzində Şuşa şəhərinə gedə biləcəklər.

Bakı-Füzuli marşrutu üzrə sərnişin təyyarəsi ilə uçuş müddəti cəmi 35 dəqiqədir. Hava limanı 1 saatda 200 sərnişinə xidmət edə biləcək. Hava limanında uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verilib. Burada Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) bütün tələblərinə uyğun olaraq uçuşların təhlükəsizliyini təmin etmək üçün instrumental enmə və naviqasiya sistemləri, işıqtexniki, ilkin və ikinci radiolakasiya sistemləri quraşdırılıb. Bu, hava limanına istənilən tip təyyarələrin qəbul edilməsinə imkan verəcək.

Avtomatlaşdırılmış sistemlərlə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə (HHİ) qülləsinin tikintisi başa çatıb. Bunun sayəsində Füzuli Hava Limanına ICAO və Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) standartlarına müvafiq qaydada uçuşların başlanması mümkün olacaq. Gələcək aerovağzal kompleksinin elektrik enerjisi ilə təmin edilməsi üçün nəzərdə tutulan əsas transformator yarımstansiyaları və elektrik ötürücü xətləri də hazırdır. Qazanxana və digər köməkçi binaların tikintisi başa çatıb.

Sentyabrın sonunda istifadəyə verilməsi planlaşdırılan sərnişin terminalının qarşısında 150 avtomobil üçün nəzərdə tutulan dayanacaq inşa edilib.

Hava limanını "Zəfər yolu" və Şuşa şəhərinə aparan magistral yol ilə birləşdirən avtomobil yolunun tikintisi davam etdirilir. Ərazidə yaşıllaşdırma işləri də aparılır.

Azərbaycan Prezidentinin də söylədiyi kimi, Füzuli Hava Limanı işğaldan azad edilmiş ərazilərimizə xarici turistlərin cəlb olunması üçün olduqca faydalıdır və yeni imkanlar yaradacaq. Çünki hazırda Qarabağın incisi hesab olunan və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə gəlmək istəyən xarici turistlərin sayı kifayət qədər çoxdur. Həmin turistlərin daha sərfəli və qısa yolla, praktik olaraq birbaşa işğaldan azad olunan ərazilərimizə səfər edə bilməsi üçün Füzuli Hava Limanı əlverişli imkan yaradacaq. Bu amil işğaldan azad edilmiş ərazilərimizə, eləcə də Füzuli rayonuna gələcək turistlərin sayına müsbət təsir göstərəcək və daha çox turistin ölkəmizə gəlməsinə imkan verəcək. Yəni, aeroport regionda turizmin canlanması üçün yeni imkanlar yaradacaq.

Əlavə edək ki, sentyabrın 5-də Azərbaycanın "Silk Way" aviaşirkətinə məxsus ən böyük yük təyyarələrindən biri olan "Boeing 747-400" tipli hava gəmisi də Füzuli Hava Limanına eniş etmişdi. Bu təyyarə ilə Qarabağa ilk dəfə hava yolu vasitəsilə yüklər çatdırılıb. Bu onu göstərir ki, hava limanı həm də yükdaşımalar, xüsusən beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş ərazilərimizin sənaye potensialını nəzərə alsaq, Füzulidə açılan hava limanı həm də Qarabağda istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından olduqca vacibdir.

davamı 2-ci səh.

Azərbaycan gələcək hədəflərə doğru uğurla irəliləyir

əvvəli 1-ci səh.

Lakin Füzuli Hava Limanının inşası işğaldan azad edilmiş ərazilərimizdə müasir kommunikasiyaların qurulması sahəsində həyata keçirilən, iqtisadi, strateji baxımdan dəyərli olan yeganə layihə deyil. Zəngilan və Laçında da tikilən hava limanları Azərbaycanın tarixi torpaqlarına böyük qayıdış üçün vacib sayılan çox mühüm strateji layihələrdir.

İqtisadçı ekspertlər də hesab edirlər ki, Füzulidə, Laçında və Zəngilanda aeropotların olması Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının regionun aparıcı mərkəzlərinə çevrilə bilməsinə imkan yaradacaq. Şərqi Zəngəzurda aeroportun tikilməsi buranın nəqliyyat habına çevrildiyini göstərir. Əgər gələcəkdə düzgün marketinq qurularsa, Füzuli aeroportunun əhəmiyyəti daha da artacaq.

İşğaldan azad edilmiş ərazilərimizdə aeroportların tikilməsi xarici iş adamlarının bu bölgəyə investisiya yatırmasına imkan yaradır.

Dövlətimizin gündəliyində olan əsas məsələlərdən biri isə keçmiş məcburi köçkünlərin azad edilmiş torpaqlara tədricən qaytarılmasıdır ki, artıq bu istiqamətdə də əhəmiyyətli addımlar atılır.

Cəmi bir neçə aydan sonra Zəngilan rayonunda keçmiş köçkünlər yerləşəcək. Eyni zamanda, Ağdam, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında da pilot kəndlər salınır və vətəndaşların ora qaytarılması üçün sürətli işlər gedir.

Bu il Respublika Günümüzdə, 28 mayda Ağdam şəhərinin baş planı təsdiqləndi. Həmin gün Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşündə Prezident İlham Əliyev söylədi ki, biz elə bir şəhər quracağıq, elə bir Ağdam quracağıq ki, bütün dünya üçün örnək olacaqdır.

Avqustun 29-da isə Şuşaya səfər edən Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Şuşa şəhərinin baş planı təqdim olundu.

Şuşa şəhərinin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulacaq və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

Şəhərdə uzunluğu 36,2 kilometr olan mövcud yollarla yanaşı, həm də 17,6 kilometr yeni yolun inşası da nəzərdə tutulur. Şəhərin baş planında ictimai dayanacaqların da yerləşmə yerləri müəyyən olunub. Bu dayanacaqlar elə qoyulacaq ki, şəhərin küçələrinə giriş-çıxışa maneə olmasın.

Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Beləliklə, yaşayış massivində 25 binanın olacağı planlaşdırılır. Avqustun 29-da təməli qoyulan birinci məhəllədə 3, 4 və 5 mərtəbəli binalar Şuşaya xas memarlıq üslubu ilə tikiləcək. Baş planla tanışlıqdan sonra Prezident birinci məhəllənin təməlini qoydu.

Avqustun 30-da, Şuşa işğaldan azad edildikdən sonra yenidən təşkil olunan Vaqif Poeziya Günlərinin açılışında çıxış edən Prezident İlham Əliyev vurğuladı ki, bu kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir və şuşalılar Şuşaya qayıdırlar: "Həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, eyni zamanda, burada artıq açılmış obyektlərdə şuşalılar işlə təmin edilir. Beləliklə, biz Şuşanı yenidən dirçəldəcəyik".

Göründüyü kimi, Azərbaycan artıq işğaldan azad etdiyi əzəli yurdlarında hədəflədiyi bütün işləri bir-bir reallaşdırır və gələcək hədəflərə doğru uğurla irəliləyir.

Bütün bunlar isə tezliklə Qarabağda yenidən xoşbəxt həyatın yaşanacağının sorağını verir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qəhrəman Azərbaycan Ordusu qarış-qarış Vətən torpaqlarımızı azad edərək milyonlarla məcburi köçkünə doğma yurda qayıdış xoşbəxtliyi, bütün xalqımıza isə Zəfər sevinci, qüruru ərməğan etdi...

Möhtəşəm Qarabağ Zəfərinin üzərindən heç bir gün keçməmiş, 11 noyabr 2020-ci ildə Ali Baş Komandan İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşü zamanı məcburi köçkünlərə gözaydınlığı verdi, tezliklə doğma torpaqlarına qovuşacaqlarının şad xəbərini çatdırdı: "...Mən onlara bizim bu qəhrəman əsgər və zabitlərimizin hüzurunda müraciət edərək deyirəm: Siz köçkün deyilsiniz, siz qayıdırsınız. Biz sizi qaytaracağıq. Bax, burada oturanlar, bizim minlərlə əsgər və zabitlərimiz sizi öz doğma dədə-baba torpaqlarınıza qaytarırlar. Biz Azərbaycan dövləti isə əlimizdən gələni edəcəyik ki, sizi tezliklə qaytaraq..."

Bəli, elə təcavüzkar və işğalçı Ermənistana qarşı aparılan mübarizənin və əldə olunan zəfərin əsas qayələrindən biri də məcburi köçkünlərin öz doğma torpaqlarına, əsrlərboyu xalqımızın yaşadığı ərazilərə geri qaytarılması idi...

Hazırda işğaldan azad edilən yurdlarımıza yenidən həyat qaytarılır, Azərbaycanın tarixi torpaqları və ən gözəl güşələrindən olan Qarabağ və Şərqi Zəngəzur əsl cənnət məkanına çevrilir.

Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında bu yerlərdə əsaslı quruculuq tədbirləri həyata keçirilir, infrastruktur yenilənir, yollar çəkilir, hava limanları istifadəyə verilir, şəhərlərimizin müfəssəl hazırlanan baş planları təsdiq olunur. Eyni zamanda barbar ermənilərin illərlə divan tutduğu tarixi irsimiz bərpa olunur, dağıdılan məscidlərimizdən yenidən azan səsləri ucalır...

Dövlət başçısı Qarabağda həyata keçirilən bütün işlərlə şəxsən maraqlanır, o yerlərə səfərlər edir, tikintisi, təmiri başa çatan obyektlərin açılışını edir, yeni-yeni layihələrin uğurlu təməllərini qoyur.

Azadlığa qovuşdurulan əzəli Vətən torpaqlarımızda sürətlə həyata keçirilən bütün kompleks tədbirlər isə keçmiş məcburi köçkünlərin qısa zamanda öz dədə-baba torpaqlarına qayıtmasını təmin etmək üçündür...

Və artıq bu müqəddəs missiyanın ilk addımları da atılmağa başlanıb. Məcburi köçkünlər qrup-qrup öz doğma ocaqlarına ziyarətə gedirlər. Şuşalılar 30 illik uzun zaman dilimindən sonra doğma şəhərlərinə səfər etdilər. Cıdır düzündə oldular, Yuxarı və Aşağı Gövhər ağa məscidlərini ziyarət etdilər, Qala divarları, Gəncə qapısı, şəhərin simvolları olan və Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərkən gülləbaran etdikləri Üzeyir bəy Hacıbəylinin, Xurşidbanu Natəvanın, Bülbülün heykəllərini ziyarət etdilər. Doğulduqları evlərə getdilər, kandarlarına qədəm qoydular, illərin ayrılığından sonra doğma ocağa qovuşmağın sevincinə, sınan Şuşalı xatirələrinin, itirdikləri doğmalarının, əzizlərinin hüzn göz yaşlarına boğuldular...

Avqustun 29-da Şuşaya səfər edən zaman İlham Əliyev də bir daha bəyan etdi ki, burada görülən kompleks tədbirlər onu göstərir ki, Şuşanın dirçəldilməsi sürətlə gedir. İndi şuşalılar həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, həm də burada açılmış yeni müəssisə və obyektlərdə işlə təmin edilirlər.

İllərdən sonra bir qrup Kəlbəcər sakini də doğma yurdları ilə görüşdü. 28 ildən sonra ilk dəfə ayaq basdılar ana yurda, ətirli havasını çəkdilər sinələrinə, illərlə həsrətini çəkdikləri Vətənə gözüdolusu baxdılar...

Kəlbəcərlilər rayonda "Tunel qətliamı"nın, Başlıbel faciəsinin baş verdiyi ərazini ziyarət etdilər, Günəşli kəndində oldular, doğma şəhərlərində görülən yenidənqurma işləri ilə tanış oldular.

Bəli, bundan sonra da mərhələli şəkildə digər işğaldan azad edilən yurdlarımıza sakinlərin bu cür səfərləri təşkil olunacaq, onlar öz əzəli yurdlarına ziyarətə gələcəklər... Amma o gün də uzaqda deyil, bütün məcburi köçkünlər doğma Cəbrayıla, Zəngilana, Füzuliyə, Qubadlıya, Ağdama, Laçına, Şuşaya, Kəlbəcərə və digər işğaldan azad edilən dədə-baba yurdlarımıza əbədi yaşamağa qayıdacaqlar.

Vətən müharibəsindən bizi ayıran hər gün işğaldan azad olunan ərazilərin bərpasından, xalqımıza və dövlətimizə vurduğu yaraların tezliklə sağalacağından, verilən sözlərin qısa zaman kəsiyində reallaşacağından xəbər verir. Şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına göstərilən dövlət qayğısı da xalqımız tərəfindən birmənalı şəkildə bəyənilir.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin açarlarını təqdim etmələri də dövlət qayğısının bariz nümunəsidir.

Tədbirdə bildirildi ki, bu dəfə 300 mənzil, həmçinin müharibə əlillərinə 50 avtomobil təqdim olunur: "Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinə, bu haqq savaşımızda şanlı Zəfər qazanan qüdrətli Azərbaycan Ordusunun hərbçilərinə, qazilərinə daim xüsusi diqqət və qayğı göstərir. Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər bunun bariz nümunəsidir..."

Hazırda dünyada pandemiyanın müəyyən çətinliklər yaratmasına baxmayaraq, Azərbaycanda bu işlər uğurla davam etdirilir. Avqustun 25-də Prezident İlham Əliyevin "Vətən Müharibəsi Qəhrəmanları və onların ailə üzvlərinin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" imzaladığı sərəncam bu prosesin ardıcıl xarakter aldığını göstərir və bu kateqoriyadan olan vətəndaşların mənzil problemlərinin həllində müstəsna rol oynayır.

Azərbaycanda həyata keçirilən sənayeləşmə prosesi, əhalinin artım tempi, sosial infrastrukturun genişlənməsi, insanların yaşayış səviyyəsinin yüksəlməsi qarşımızda yeni-yeni vəzifələr qoyur. Bu vəzifələrdən biri də elektroenergetika sektorunun daim inkişaf etdirilməsidir. Uzun illərdir işğal altında olan torpaqlarımızın azad edilməsindən sonra elektrik enerjisinə tələbatın çoxalması bu sistemdə aparılan tikinti və yenidənqurma işlərinin daha da sürətləndirilməsini şərtləndirir.

Təsadüfi deyil ki, son illər Azərbaycanda enerjisistemin maddi-texniki bazasının möhkəmləndirilməsi, ölkəmizin enerji potensialının daha da artırılması, yeni elektrik stansiyaları və yarımstansiyalarının inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində çox mühüm layihələr icra olunub. Elə son il yarımda ölkədə neçə-neçə yeni generasiya gücləri yaradılıb. İstifadəyə verilən stansiya və yarımstansiyaların əksəriyyətinin açılışında Prezident İlham Əliyevin iştirak etməsi diqqəti bir daha bu hadisələrin önəmli olduğuna yönəldir.

Eyni zamanda Qarabağ "yaşıl enerji" zonasına çevrilir. Əslində, bu regionda bərpaolunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək "yaşıl zona", yaxud "yaşıl məkan" konsepsiyasının hazırlanmasına hələ Vətən müharibəsindəki şanlı qələbəmizdən az sonra başlanmışdır. Bu il mayın 3-də isə Prezident "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır. Dövlət başçısı bu ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara almışdır.

Bütün bunların nəticəsində Qarabağ bölgəsi "yaşıl enerji" zonası kimi dünya üçün bir nümunə olacaq. Məlum olduğu kimi, Qarabağın bərpaolunan enerji istehsalı üçün potensialı böyükdür. Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Qarabağın cənub düzənlik hissəsi - Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdə dayanır. Burada bir kvadratmetr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kilovat/saat təşkil edir. Bu ərazilərin ümumi günəş enerjisi potensialı 3000-4000 meqavatdır. Ərazidə ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə potensialın daha dəqiq hesablanması həyata keçiriləcək.

Qarabağda eləcə də külək enerjisi istehsal etmək mümkün olacaq. Belə ki, regionun dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti saniyədə 10 metrə çatır. Ümumilikdə Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavat kimi qiymətləndirilir. Ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə bu sahənin də dəqiq potensialı hesablanacaq.

Bütün bunlardan başqa, Kəlbəcərdə və Şuşada termal su ehtiyatları var. Qarşıda dayanan vəzifələrdən biri də termal mənbələrdən enerji məqsədli istifadənin mümkünlüyünü tədqiq etməkdir.

Bir sözlə, ölkənin elektrik enerjisi sistemində görülən ardıcıl və çoxşaxəli işlər yurdumuzun hər guşəsini daha çıraqban edir. Nə xoş ki, işğaldan azad edilmiş bölgələrimizin də işığı gündən-günə artır. Şuşada 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyası istifadəyə verildi, şəhərin nurunu, işığını daha da artırdı. Şuşa, eləcə də energetika qurğularının tikintisi sahəsində yeni bir rekorda şahidlik etdi. Belə ki, Füzulidəki "Şükürbəyli" yarımstansiyasından Şuşaya 110 kilovoltluq ikidövrəli elektrik verilişi xətti çəkilişi fasiləsiz, növbəlilik prinsipi ilə iki ay yarımdan da az bir müddətdə icra olundu. Bu isə yalnız Azərbaycan energetikasında deyil, bütün regionun energetika tarixində bir rekorddur. Belə rekordlarımız hələ çox olacaq!

Azərbaycan və Türkiyə gömrük orqanları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə mübarizəni intensivləşdirəcək

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Türkiyə Respublikası Ticarət Nazirliyi arasında 2021/2022-ci illər üzrə gömrük işi sahəsində əməkdaşlığın və qarşılıqlı yardımın səmərəliliyinin yüksəldilməsinə dair Tədbirlər Planına uyğun olaraq qardaş ölkənin Ticarət Nazirliyi Gömrük Hüquq-Mühafizə Baş İdarəsinin əməkdaşları respublikamızda işgüzar səfərdədir.

Sentyabrın 7-də Dövlət Gömrük Komitəsində Türkiyə Respublikasının Ticarət Nazirliyi Gömrük Hüquq-Mühafizə Baş İdarəsinin əməkdaşları ilə görüş keçirilib.

Görüşdə Dövlət Gömrük Komitəsi Əməliyyat və İstintaq Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Məsum Rəsulov, Türkiyə Respublikasının Ticarət Nazirliyi Gömrük Hüquq-Mühafizə Baş İdarəsinin rəisi Murat Yaman və digər səlahiyyətli şəxslər iştirak ediblər.

Görüşün keçirilməsində məqsəd Azərbaycan və Türkiyə gömrük orqanları arasında əlaqələrin səmərəli təşkili üçün birgə işçi qrupun yaradılması, mövcud və gələcək əməkdaşlıq imkanlarının müzakirə edilməsi olub.

Qonaqları salamlayan DGK Əməliyyat və İstintaq Baş İdarəsinin rəisi Məsum Rəsulov iki qardaş ölkənin gömrük qurumları arasındakı əlaqələrdən bəhs edib, Azərbaycan gömrük xidmətində tətbiq edilən yeniliklər barədə məlumat verib.

Baş İdarənin rəisi əməkdaşlığın hazırkı vəziyyətindən razılığını bildirib, bu əlaqələrin əhatə dairəsinin daha da genişləndirilməsinin vacibliyini vurğulayıb. Diqqətə çatdırılıb ki, qarşılıqlı təcrübə və məlumat mübadiləsinin həyata keçirilməsi, birgə təlimlərin təşkili narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində hər iki tərəf üçün faydalı ola bilər.

Səmimi görüşə görə minnətdarlığını ifadə edən Türkiyə Respublikasının Ticarət Nazirliyi Gömrük Hüquq-Mühafizə Baş İdarəsinin rəisi Murat Yaman iki ölkə arasında əlaqələri yüksək qiymətləndirib.

Görüş zamanı bu ilin müvafiq dövründə hər iki ölkənin gömrük orqanları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə zamanı əldə edilən uğurlu nəticələr, bu sahədə əməkdaşlığın gücləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün sonunda narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin intensivləşdirilməsi, əlaqələrin daha da dərinləşdirilməsi istiqamətində razılıq əldə olunub, birgə əməkdaşlığın həyata keçirilməsi məqsədilə hər iki tərəfdən səlahiyyətli şəxslər təyin edilib.

Müvafiq razılaşmada Türkiyə və Azərbaycan gömrük orqanlarının əməliyyat idarələrinin əməkdaşları üçün təlimlərin keçirilməsi, kinoloji xidmətlər arasında qarşılıqlı təcrübə mübadiləsinin aparılması öz əksini tapıb.

Görüşdən sonra qonaqlar Dövlət Gömrük Komitəsində Hədəf Mərkəzinin işi ilə tanış olub və onun fəaliyyətini yüksək qiymətləndiriblər.

Qardaş ölkənin nümayəndə heyətinin səfəri sentyabrın 10-dək davam edəcək.

ABŞ-ın Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları ilə görüş keçirilib

Sentyabrın 9-da Dövlət Gömrük Komitəsində Amerika Birləşmiş Ştatlarının Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları ilə görüş keçirilib.

Görüşdə Dövlət Gömrük Komitəsi Əməliyyat və İstintaq Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Məsum Rəsulov, ABŞ-ın Narkotiklərlə Mübarizə İdarəsinin Orta Asiya Regionu üzrə rəis müavini Robert Eller və digər səlahiyyətli şəxslər iştirak ediblər.

DGK Əməliyyat və İstintaq Baş İdarəsinin rəisi Məsum Rəsulov ABŞ-ın Narkotiklərlə Mübarizə İdarəsi ilə uzunmüddətli əməkdaşlıqdan məmnunluqla bəhs edib, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində birgə tədbirlərin təşkili, qarşılıqlı məlumat mübadiləsinin həyata keçirilməsi istiqamətində mühüm addımlar atıldığını bildirib.

Görüş zamanı qarşılıqlı əməkdaşlığın, xüsusilə məlumat mübadiləsinin daha da gücləndirilməsinin zəruriliyi vurğulanıb.

Eyni zamanda Dövlət Gömrük Komitəsi əməkdaşlarının potensialının gücləndirilməsi, bilik və bacarıqlarının artırılması məqsədilə təlim və seminarların təşkili barədə razılıq əldə olunub.

Azerbaijani and Turkish customs bodies to intensify joint fight against illicit drug trafficking

In accordance with the 2021/2022 Action Plan on increasing the effectiveness of cooperation and mutual assistance in the field of customs between the State Customs Committee of the Republic of Azerbaijan and the Ministry of Trade of the Republic of Turkey, employees of the Main Customs Law-Enforcement Department of the Ministry of Trade of the brotherly country are on a working visit to our republic.

A meeting with the employees of the Main Customs Law-Enforcement Department of the Ministry of Trade of the Republic of Turkey was held at the State Customs Committee on September 7.

The meeting was attended by chief of the Main Operation and Investigation Department of the State Customs Committee, customs service Major-General Masum Rasulov, chief of the Main Customs Law-Enforcement Department of the Ministry of Trade of the Republic of Turkey Murat Yaman and other authorized persons.

The meeting aimed at establishing the joint working group for organizing relations between the customs bodies of Azerbaijan and Turkey, discussing the existing and future cooperation opportunities.

Welcoming the guests chief of the Main Operation and Investigation Department of the State Customs Committee Masum Rasulov spoke about the relations between the customs bodies of the two fraternal countries, gave information about the innovations applied in Azerbaijan's customs service.

Chief of the Main Department expressed satisfaction with the current state of cooperation, underlined the importance of further enhancing the relations. It was said that exchange of experience and information, joint exercises could be productive for both sides in terms of fighting against illicit drug trafficking.

Chief of the Main Customs Law-Enforcement Department of the Ministry of Trade of the Republic of Turkey Murat Yaman thanked for sincere meeting, highly appreciated the relations between the two countries.

Views were exchanged on the successful results in the fight against illicit drug trafficking, strengthening of cooperation and other issues of mutual interest.

An agreement was reached at the end of the meeting to intensify the fight against illicit drug trafficking, further deepen the relations, persons responsible for joint cooperation were appointed from both sides.

The relevant agreement envisaged holding exercises for the employees of operation departments of the customs bodies of Turkey and Azerbaijan, exchanging experience between the dog training services.

After the meeting, the guests visited the Target Center of the State Customs Committee and highly appreciated its activity.

The visit of the fraternal country's delegation will last until September 10.

Meeting held with representatives of the US Drug Enforcement Administration

A meeting with the representatives of the US Drug Enforcement Administration was held at the State Customs Committee on September 9.

The meeting was attended by chief of the Main Operation and Investigation Department of the State Customs Committee, customs service Major-General Masum Rasulov, Assistant Special Agent in Charge at Drug Enforcement Administration for Central Asia Robert Eller and other officials.

Chief of the Main Operation and Investigation Department of the State Customs Committee Masum Rasulov expressed satisfaction with the long-term cooperation with the US Drug Enforcement Administration, said important steps had been taken to jointly organize events and exchange information on illicit drug trafficking,

It was underlined that mutual cooperation, especially exchange of information should be strengthened.

An agreement was reached to organize trainings and workshops in order to strengthen potential, improve knowledge and skills of employees of the State Customs Committee.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Dövlət Gömrük Komitəsinin birgə məlumatı

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Dövlət Gömrük Komitəsi tərəfindən son illər "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması və biznes subyektlərinin fəaliyyətinin şəffaflaşdırılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Səmərəli vergi və gömrük nəzarəti mexanizmlərinin tətbiqi nəticəsində sahibkarlıq subyektlərinin iqtisadi dövriyyələrinin "ağarması" istiqamətində müsbət nəticələr müşahidə olunur.

Bu sahədə aparılan mühüm tədbirlərdən biri də vergi və gömrük orqanları tərəfindən üçüncü şəxslər üçün mallar idxal edən vergi ödəyicilərinin müəyyən edilməsi və qanunvericilikdə nəzərdə tutulmuş formada mal sahiblərinə təqdim olunması istiqamətində birgə nəzarətin həyata keçirilməsidir.

Növbəti belə tədbirlərdən biri üçüncü şəxslər üçün mallar idxal edən "Fabrolık Tıkıntı" MMC-də həyata keçirilib. Lakin birgə nəzarət tədbirlərinin davam etməsinə baxmayaraq, sentyabrın 4-də həmin müəssisəyə aidiyyəti (qanuni təmsilçi və ya etibarnamə üzrə nümayəndə) olmayan vətəndaş Bəhlulov Osman İlqar oğlu tərəfindən Bakı Baş Gömrük İdarəsinin "İpək yolu" gömrük postunda malların gömrük ərazisindən çıxarılmasına cəhd edilib. Bu zaman O.Bəhlulov gömrük və vergi orqanı əməkdaşlarının birgə nəzarət tədbirlərinin həyata keçirilməsinə mane olub, vergi və gömrük orqanının vəzifəli şəxslərini təhqir edib, nəqliyyat vasitəsini vergi və gömrük əməkdaşlarının üzərinə sürərək gömrük postunun qarşısını bağlayıb və digər nəqliyyat vasitələrinin çıxışına maneə yaradıb.

O.Bəhlulovun qanunsuz hərəkətləri hüquq-mühafizə orqanlarının iştirakı ilə rəsmiləşdirilərək Səbail Rayon Məhkəməsinə göndərilib və məhkəmənin 06.09.2021-ci il tarixli qərarı ilə İnzibati Xətalar Məcəlləsinin 535-ci maddəsinə əsasən, barəsində 10 gün müddətinə inzibati həbs qərarı verilib.

Qeyd edək ki, O.Bəhlulov bundan əvvəl də çoxlu sayda müəssisənin adına rəsmiləşdirilmiş üçüncü şəxslərə məxsus malların heç bir təmsilçilik hüququ olmadan gömrük ərazisindən çıxarılmasına cəhdlər edib.

Məlumat üçün bildirilməlidir ki, "Fabrolık Tıkıntı" MMC-də keçirilmiş operativ vergi nəzarəti zamanı müəssisənin rəhbəri dəvət edilib, araşdırma zamanı MMC-yə məxsus təsərrüfat subyektinin formal olaraq qeydiyyata qoyulduğu, riskli (əmtəəsiz) əməliyyatlar aparıldığı müəyyən edilib.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti və Dövlət Gömrük Komitəsi bildirir ki, mövcud qanunvericiliyə əsasən, idxal olunan malların üçüncü şəxslərə sənədsiz təhvil verilməsinə, saxlanılacağı təsərrüfat subyektlərinin düzgün göstərilməməsinə yol verilmir və bu kimi hallar qanunvericiliyin tələblərinin pozulmasına gətirir. "Kölgə iqtisadiyyatı"nın artmasına şərait yaradan belə halların qarşısının alınması istiqamətində aidiyyəti orqanların birgə fəaliyyəti bundan sonra da davam etdiriləcək.

Dövlət Gömrük Komitəsi yanında İctimai Şuraya üzvlər gizli səsvermə yolu ilə seçiləcək

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi yanında İctimai Şuraya seçkilərin təşkili məqsədilə "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının 22 noyabr 2013-cü il tarixli Qanununa və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 may 2014-cü il tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"yə uyğun olaraq 23.07.2021-ci il tarixdən 23.08.2021-ci il tarixədək namizədlərin qeydiyyatı həyata keçirilib.

İctimai Şuraya namizədliyi irəli sürülmüş vətəndaş cəmiyyəti institutu nümayəndələrindən 23 nəfərin namizədliyi qeydə alınıb. Namizədlərin siyahısı ilə aşağıdakı keçid vasitəsilə tanış ola bilərsiniz: https://customs.gov.az/modules/pdf/pdf-folder/108/FILE_B9AB9D-A9D620-40DB4F-C20D43-55213D-4BFA41.pdf

Xatırladaq ki, Seçki Komissiyasının qərarı ilə Dövlət Gömrük Komitəsi yanında İctimai Şura üzvlərinin sayı 13 nəfər müəyyən edilib.

Dövlət Gömrük Komitəsi yanında İctimai Şuraya üzvlər vətəndaş cəmiyyəti institutlarının bərabər sayda təmsilçilərindən ibarət birgə yığıncaqda 21.09.2021-ci il tarixdə saat 09:00-dan 16:00-dək Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisində (Bakı şəhəri, Xətai rayonu, Natiq Əliyev küç, 4a) gizli səsvermə yolu ilə seçiləcək.

Birgə yığıncaqda təmsilçisinin iştirak etməsinə maraq göstərən vətəndaş cəmiyyəti institutları seçkidə seçici qismində iştirak edəcək nümayəndə barədə zəruri məlumatları göstərməklə, Dövlət Gömrük Komitəsi yanında İctimai Şuraya seçkilərin təşkilini həyata keçirən Seçki Komissiyasına müraciət etməlidir.

Seçicilərə dair tələblər

· İctimai Şuraya seçkidə seçici qismində yalnız vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri iştirak edə bilərlər;

· İctimai Şuraya seçkidə seçici qismində iştirak etməsi üçün hər bir vətəndaş cəmiyyəti institutu bir təmsilçisinin namizədliyini irəli sürməlidir;

· Seçki komissiyasının üzvləri İctimai Şuraya seçkidə seçici qismində çıxış edə bilməzlər.

Seçicinin (vətəndaş cəmiyyəti institutunun təmsilçisinin) qeydiyyatı məsələsinə baxılması üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:

1. Seçicinin qeydiyyata alınması üçün müraciət (soyadı, adı, atasının adı, təvəllüdü, yaşayış yeri, əlaqə telefonu göstərilməklə);
2. Seçicinin şəxsiyyət vəsiqəsinin surəti;
3. Seçicinin vətəndaş cəmiyyəti institutuna üzvlüyünü təsdiq edən sənədin surəti;
4. Vətəndaş cəmiyyəti institutunun dövlət qeydiyyatını təsdiq edən sənədin surəti.

Sənədlərin qəbulu və baxılması

Seçicilərin qeydiyyatı məsələsinə Seçki komissiyası tərəfindən baxılır. Qeydiyyat üçün sənədlər 11.09.2021-ci il tarixinədək ictimaisura.gomruk@gmail.com elektron poçt ünvanına göndərilməlidir.

Namizədliyi qeydə alınmış şəxsləri, onların nümayəndələrini, eləcə də maraqlı olan KİV təmsilçilərini seçki gününə bir gün qalanadək, Dövlət Gömrük Komitəsinə şəxsən və ya ictimaisura.gomruk@gmail.com elektron poçtu vasitəsilə məlumat verməklə seçki prosesini izləməyə dəvət edirik.

Gömrük əməkdaşları üçün keçirilən təlimlərə yekun vurulub

Naxçıvan Muxtar Respublikası gömrük orqanlarının əməkdaşları üçün "Fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən yüklərin müayinəsi və sərnişin keçid zallarında işin təşkili" mövzusunda təlimlər keçirilib.

Təlimlər Naxçıvan Muxtar Respublikası gömrük sistemində xidmətin keyfiyyətinin artırılması məqsədilə davamlı olaraq həyata keçirilən təkmilləşmə və ixtisaslaşma proqramı çərçivəsində təşkil edilib. Bu təlimlərə Sədərək, Culfa, Şahtaxtı və Hava Limanı gömrük postlarında xidmət edən 91 əməkdaş cəlb olunub.

Bir ay davam edən təlimlər zamanı metal dedektorlardan istifadə qaydaları, rentgen-nəzarət qurğusundan isifadə etməklə əldə olunan təsvirlərin analizi, vətəndaşlarla davranış qaydaları və onların müşayiət olunan baqajlarının müayinəsi, əşyalarda gizli saxlanc yerləri, təcrübədə aşkarlanmış faktların analizi, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən gömrük sərhədindən keçirilməsi qadağan olunan və mülki dövriyyəsi məhdudlaşdırılan mallar, narkotik vasitələr və psixotrop maddələr barədə dərslər və praktik məşğələlər keçirilib.

Təlim proqramına uyğun olaraq stasionar və portativ metal dedektorlardan istifadə, o cümlədən rentgen-nəzarət qurğusunun istismarı zamanı təsvirlərin analizi üzrə qiymətləndirmələr aparılıb.

Avqustun 31-də Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində sözügedən təlimlərdə yüksək nəticə göstərən əməkdaşlarla görüş keçirilib.

Naxçıvan MR Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli dövlətimiz tərəfindən gömrük orqanlarında uğurla həyata keçirilən infrastruktur və struktur islahatları ilə yanaşı, kadr potensialının gücləndirilməsi üçün də ardıcıl işlərin görüldüyünü qeyd edib.

Vurğulanıb ki, gömrük orqanlarında yaradılan yüksək iş şəraiti, ən müasir texniki nəzarət vasitələrinin işdə tətbiqi xidmətin yüksək səviyyədə təşkilinə imkan yaradır. Kadrların ixtisaslaşması və peşəkarlıq səviyyəsinin artırılması gömrük nəzarətinin keyfiyyətini daha da yüksəldir. İstər avtonəqliyyat vasitələri üzərində gömrük baxışının aparılması, istərsə də fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən yüklərin müayinəsi və sərnişin keçid zallarında işin təşkili mövzusunda keçirilən təlimlərin müsbət nəticələri özünü iş prosesində, o cümlədən hüquqpozmalara qarşı mübarizə sahəsində aşkarlanan faktların sayında da göstərir.

Komitənin Texniki nəzarət vasitələrinin tətbiqi şöbəsinin rəisi Əkrəm Məmmədov təlimlərlə bağlı məlumat verərək bildirib ki, rentgen təsvirlərinin analizinin qiymətləndirilməsi "Simfox" proqram təminatı vasitəsilə aparılıb. Əməkdaşlar proqram təminatından istifadə etməklə gömrük sərhədindən keçirilməsi qadağan olunan malların virtual rentgen təsvirlərini aşkarlamağa çalışıblar. Qeyd olunub ki, gömrük əməkdaşlarının diqqətcillik səviyyəsinin daim yüksək tutulması və peşəkarlığın artırılması məqsədilə təlimlərin planlaşdırılmış növbəti mərhələlər üzrə davam etdirilməsi nəzərdə tutulur.

Sonra təlimlərdə yüksək nəticə göstərən əməkdaşlara sertifikatlar verilib.

Tədbirə yekun vuran Komitə sədri gömrük nəzarətinin keyfiyyətinin artırılması, texniki nəzarət vasitələrindən səmərəli istifadə, riskin düzgün qiymətləndirilməsi, gömrük sərhədindən sürətli keçidin təmin olunması üçün tədbirlərin bundan sonra da davam etdiriləcəyini, muxtar respublikanın milli və iqtisadi təhlükəsizliyinin etibarlı şəkildə qorunacağını vurğulayıb.

Mərkəzi Gömrük Hospitalının cihaz və aparatlar parkı daim yenilənir

Mərkəzi Gömrük Hospitalında "Philips" şirkətinin MDB ölkələri üzrə regional direktoru Artyom Padeyskiy, şirkətin Azərbaycan və Gürcüstan üzrə regional direktoru Nigar Zeynalova ilə görüş keçirilib.

Görüşdə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov, Mərkəzi Gömrük Hospitalının baş həkiminin müavini Bəxtiyar Musayev və Alqı-satqı və təchizat şöbəsinin rəisi Rəşad Fərəcov iştirak ediblər.

Görüşdə "Philips" şirkətinin nümayəndələri şirkətin tətbiq etdiyi innovativ texnologiyalar və istehsal etdiyi yeni avadanlıqlar, o cümlədən yeni növ angioqraf, KT, MRT və ultrasəs aparatları barədə ətraflı məlumat veriblər. Onlar həmçinin şirkətin MDB ölkələrində və Azərbaycanda gələcək planları və perspektivləri barədə fikirlərini bölüşüblər.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov görüş zamanı bildirib ki, Mərkəzi Gömrük Hospitalı hazırda ən yüksək texnoloji müalicə metodlarından istifadə etməklə ağır koronavirus xəstələrinə xidmət edir. Ceyhun Məmmədov vurğulayıb ki, hospital yüksək səviyyəli tibbi xidmətin göstərilməsi üçün zəruri olan hər cür müasir avadanlığa malikdir. Hospitalın cihaz və aparatlar parkı daim yenilənir və tibbi heyət tərəfindən mənimsənilir.

Görüşdə "Philips" şirkətinin təmsilçisi Dövlət Gömrük Komitəsi tərəfindən Mərkəzi Gömrük Hospitalında yeni istifadəyə veriləcək "Philips Incisive CT pro 128" kompüter tomoqrafiya (KT) aparatının imkanları barədə ətraflı məlumat verib.

Görüşün sonunda hospitalda yeni KT aparatından istifadəni daha dəqiq mənimsəmək üçün "Philips" şirkəti tərəfindən hospitalın həkim-radioloq və texnikləri üçün əyani və onlayn treninqlərin keçirilməsi barədə razılaşma əldə olunub.

Saxta xalçaların müəyyən edilməsi mövzusunda təlim keçirilib

Sentyabrın 6-7 tarixlərində "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qobu emalatxanasında Dövlət Gömrük Komitəsinin əməkdaşları üçün "Saxta xalça məhsullarının müəyyən edilməsi" mövzusunda təlim keçirilib.



Təlimin məqsədi gömrükçülərin xalça və digər toxuma məmulatları haqqında bilgilərini artırmaq və bu qəbildən olan malların sərhədkeçmə prosesində gömrük işinin daha səmərəli və sürətli şəkildə reallaşdırılmasına nail olmaqdır.

Təlimdə Dövlət Gömrük Komitəsinin Gömrük Sərhəd Buraxılış Məntəqələrinin İşinin Təşkili Baş İdarəsi Sərnişin dəhlizlərinin idarə olunması şöbəsinin rəisi Vasif Qurbanov çıxış edərək sözügedən sahədə Dövlət Proqramı, eləcə də onun icra vəziyyəti barədə əməkdaşları məlumatlandırıb.

"Azərxalça" ASC-nin istehsalat direktoru Əlisəfa Nuriyev təlim iştirakçılarına təmsil etdiyi qurumun iş prinsipi, eyni zamanda Azərbaycan xalçaçılıq məktəbinin tarixi, xalçaçılıq qrupları, bu qrupların özünəməxsus xüsusiyyətləri barədə məlumat verib.

Təlim zamanı emalatxanada xalçaların toxunma prosesi, onların növü, müxtəlif bölgələrə və mədəniyyətlərə aid xalçaların oxşar və fərqli cəhətləri ətraflı şəkildə izah edilib.

Əldə edilən biliklər iştirakçılara gömrük nəzarəti zamanı tarixi dəyəri olan məmulatları vaxtında və düzgün şəkildə aşkarlamaq, eləcə də sertifikatlaşdırma prosesində yol verilə biləcək xətaları aradan qaldırmaq baxımından faydalı olacaq.

Gömrükçü tələbələr üçün xaricdə ilk təhsil imkanı yaradılıb

Dövlət Gömrük Komitəsinin Akademiyasının Litvanın Mikolas Romeris Universiteti (MRU) ilə 2020-ci ilin avqust ayında imzalanmış ikitərəfli əməkdaşlıq müqaviləsi çərçivəsində Akademiyanın beş tələbəsi 2021/2022-ci tədris ilində Litvada qısamüddətli təhsil üzrə Dövlət Təqaüd Proqramına seçiliblər.

Litvanın Təhsil Mübadiləsinə Dəstək Fondunun icra etdiyi bu təqaüd proqramı 2021-cil ilin aprel ayında 6 Şərq Tərəfdaşlığı ölkəsi, 51 ASEM (Asiya-Avropa Görüşü) ölkəsi, Litvanın prioritet ixrac bazarları olan ölkələrin (ABŞ, İsrail, Türkiyə, Cənubi Afrika Respublikası, Birləşmiş Ərəb Əmirlikləri) ali təhsil müəssisələri üzrə maksimum 25 tələbə üçün elan edilib.

Gömrük Akademiyasında təqaüdə müraciət etmək və MRU-da təhsil almaq istəyən tələbələrin seçilməsi prosesi ilkin qiymətləndirmə və müsahibə vasitəsilə həyata keçirilib. Tələbələrin seçilməsində başlıca meyarlar ingilis dili bilikləri, akademik göstəricilər, Litvada təhsil üçün akademik potensial və xarici mühitdə ünsiyyət bacarıqları olub.

Təqaüd qazanmış və MRU-ya qəbul edilmiş 5 tələbədən 3-ü - Səbinə Sarıyeva (2-ci kurs "Hüquqşünaslıq" ixtisası, magistrant), Aynur Səlimli (2-ci kurs "İnformasiya təhlükəsizliyi" ixtisası, bakalavr), Humay Kərimli, (3-cü kurs "Hüquqşünaslıq" ixtisası, bakalavr) payız semestrində (sentyabr 2021-yanvar 2022), digər iki tələbə - Fərhad Cavadov (2-ci kurs "İnformasiya təhlükəsizliyi" ixtisası, bakalavr) və Murad Şəfiyev (3-cü kurs "İnformasiya təhlükəsizliyi" ixtisası, bakalavr) yaz semestrində MRU-da 1 semestr ərzində təhsil alacaqlar.

Bu, Akademiyanın tələbələr üçün təşkil etdiyi xaricdə ilk təhsil imkanıdır və Akademiya belə proqramlara tələbələrin çıxışının genişləndirilməsini nəzərdə tutur.

Gömrük Akademiyası qəbul planı 100 faiz dolan 4 ali məktəbdən biri oldu

Dövlət İmtahan Mərkəzinin 2021/2022-ci tədris ili üçün ali təhsil müəssisələrinin bakalavriat səviyyəsi üzrə qəbul olmaq üçün keçirdiyi müsabiqənin nəticələrinə əsasən, Dövlət Gömrük Komitəsinin Akademiyası üzrə yüksək göstərici qeydə alınıb.

Dövlət Gömrük Komitəsinin Akademiyası

Hər il olduğu kimi Gömrük Akademiyasının qəbul planı 100 faiz dolub. Bu tədris ilində bakalavriat səviyyəsi üzrə ali təhsil müəssisələrinə aparılan müsabiqənin nəticələrinə əsasən, Gömrük Akademiyası qəbul planı 100 faiz dolan 4 ali məktəbdən biri olub.

Bu il Akademiyada bakalavriatura səviyyəsinə I ixtisas qrupu üzrə "İnformasiya təhlükəsizliyi", "İnformasiya texnologiyaları", II ixtisas qrupu üzrə "İqtisadiyyat", "Beynəlxalq ticarət və logistika", III ixtisas qrupu üzrə isə "Hüquqşünaslıq" ixtisasına qəbul həyata keçirilib.

Həmçinin, bu tədris ilində Akademiyanın bütün ixtisasları üzrə keçid balları ötən illə müqayisədə artıb.

"İnformasiya texnologiyaları" ixtisası üzrə tələbə qəbulu 2021/2022-ci tədris ilindən həyata keçirilir.

Bu il Dövlət Gömrük Komitəsinin Akademiyasının magistratura səviyyəsi üzrə qəbul planı da 100 faiz dolub.

Qaçaqmalçılıq hallarına qarşı mübarizə tədbirləri davam edir

Azərbaycan gömrük orqanları gömrük hüquqpozmalarına, eləcə də qaçaqmalçılıq hallarına qarşı mübarizə tədbirlərini davam etdirir.

Bakı Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə ölkə ərazisinə qaçaqmalçılıq yolu ilə gətirilən aksiz markasız məhsulların naməlum şəxslər tərəfindən toplanılaraq saxlanılması və ayrı-ayrı şəxslərə satışının təşkil olunması barədə əməliyyat məlumatı daxil olub.

Həmin məlumat əsasında gömrükçülərin keçirdiyi əməliyyat nəticəsində Azərbaycan Respublikasının vətəndaşı Bakı şəhərinin Nəsimi rayonu ərazisində qutularda olan naməlum predmetləri öz avtomobilinə yığarkən saxlanılıb. Saxlanılan şəxs Bakı Baş Gömrük İdarəsinə gətirilib və onun avtomobilinə baxış keçirilib. Baxış zamanı avtomobilin yük yerindəki qutularda Azərbaycan Respublikasına məxsus aksiz markası ilə markalanmayan 60.000 ədəd "Marlboro" adlı siqaret aşkar olunub.

* * *

Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında, Bakı-İstanbul aviareysilə gedən Azərbaycan Respublikasının vətəndaşı "Qırmızı Kanal"a keçərkən mütləq qaydada bəyan etməli əşyaları elektron və yazılı formada bəyan etməyib.

Vətəndaşın yükləri rentgen aparatından keçirilən zaman monitorda zərgərlik məmulatının təsvirləri görünüb. Yoxlama zamanı vətəndaşa məxsus çamadanın içərisində gömrük nəzarətindən gizlədilən, ümumi çəkisi 128 qram olan qızıl zərgərlik məmulatı - 3 ədəd sırğa-üzük dəsti, 1 ədəd sırğa-üzük-klon dəsti və 1 ədəd boyunbağı aşkar edilib.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında, "Qırmızı Körpü" gömrük postunda Azərbaycandan Gürcüstana gedən, həmin ölkə vətəndaşının idarə etdiyi "Mercedes-Benz" markalı nəqliyyat vasitəsi saxlanılıb.

Avtomobilin sürücüsü sorğu-sual zamanı idarə etdiyi nəqliyyat vasitəsində olan 9000 ABŞ dollarını gömrük nəzarətinə təqdim edib. Daha sonra nəqliyyat vasitəsinə baxış keçirilib. Yoxlama zamanı avtomobilin salonunda olan əl çantasının içərisində gömrük nəzarətindən gizlədilən 12.200 ABŞ dolları aşkar edilib.

* * *

Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında, Bakı-İstanbul aviareysilə gedən Azərbaycan Respublikasının vətəndaşı "Qırmızı Kanal"a keçərkən mütləq qaydada bəyan etməli əşyaları elektron və yazılı formada bəyan etməyib.

Vətəndaşın yükləri rentgen aparatından keçirilən zaman monitorda zərgərlik məmulatının təsvirləri görünüb. Yoxlama zamanı vətəndaşa məxsus çamadanın və baqajın içərisində gömrük nəzarətindən gizlədilən, ümumi çəkisi 114 qram olan qızıl zərgərlik məmulatı - 4 ədəd sırğa-üzük dəsti, 1 ədəd sırğa-üzük-klon dəsti və 1 ədəd qolbaq aşkar edilib.

* * *

Qərb Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında, "Qırmızı Körpü" gömrük postunda Azərbaycandan Gürcüstana gedən, həmin ölkə vətəndaşının idarə etdiyi "Mercedes-Benz" markalı nəqliyyat vasitəsi saxlanılıb.

Sürücü idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirib. Yoxlama zamanı isə avtomobilin altındakı hava balonunun içərisində 3000 kapsul, 1250 həb müxtəlif adda dərman preparatları və 100 ədəd krem aşkar edilib.

* * *

Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında, Bakı-İstanbul aviareysilə gedən Azərbaycan Respublikasının vətəndaşı "Qırmızı Kanal"a keçərkən mütləq qaydada bəyan etməli əşyaları elektron və yazılı formada bəyan etməyib.

Vətəndaşın yükləri rentgen aparatından keçirilən zaman monitorda zərgərlik məmulatının təsvirləri görünüb. Yoxlama zamanı vətəndaşa məxsus əl çantasının və çamadanın içərisində gömrük nəzarətindən gizlədilən, ümumi çəkisi 126 qram olan qızıl zərgərlik məmulatı - 2 ədəd sırğa-üzük-klon dəsti, 1 cüt sırğa və 1 ədəd boyunbağı aşkar edilib.

* * *

Şimal Ərazi Baş Gömrük İdarəsinin Əməliyyat və təhqiqat şöbəsinə daxil olan məlumat əsasında, Rusiya Federasiyasından "Samur" gömrük postunun idxal gömrük nəzarəti xəttinə daxil olan Azərbaycan Respublikası vətəndaşlarının idarə etdiyi 2 ədəd "DAF" markalı avtomobil saxlanılıb.

Yoxlama zamanı nəqliyyat vasitələrinin gizli saxlanc yerlərində müxtəlif adda olan 27 ədəd implant gel, 15 ədəd dəriyə qulluq vasitəsi və 33 ədəd 0,7 litrlik müxtəlif markalı spirtli içkilər aşkar edilib.

* * *

Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin Əməliyyat və Təhqiqat İdarəsinə daxil olan məlumat əsasında, Bakı-İstanbul aviareysilə gedən Azərbaycan Respublikasının vətəndaşı "Qırmızı Kanal" vasitəsilə keçərkən mütləq qaydada bəyan etməli əşyaları elektron və yazılı formada bəyan etməyib.

Vətəndaşın yükləri rentgen aparatından keçirilən zaman monitorda zərgərlik məmulatının təsvirləri görünüb. Yoxlama zamanı vətəndaşa məxsus çamadanın içərisində gömrük nəzarətindən gizlədilən, ümumi çəkisi 128 qram olan qızıl zərgərlik məmulatı - 2 ədəd sırğa-üzük-klon dəsti, 1 ədəd sırğa-üzük-klon-qolbaq dəsti aşkar edilib.

* * *

Cənub Ərazi Baş Gömrük İdarəsinin Biləsuvar gömrük postunda İran İslam Respublikasından tranzit keçməklə gələn "Mercedes-Benz" markalı nəqliyyat vasitəsi saxlanılıb. Gömrük baxışı zamanı avtomobilin yük yerində gömrük nəzarətinə bəyan edilməyən 360 ampula, 34 qutu və 80 ədəd müxtəlif adda dərman preparatları aşkar edilib.

Bütün faktlarla bağlı araşdırma aparılır.

Allah rəhmət eləsin!

Mərkəzi Gömrük Ekspertiza İdarəsinin kollektivi iş yoldaşları **Samir Qibləliyevə anası**
SVETLANA xanımın
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş redaktor N.S.AXUNDOV

«Gömrük xəbərləri» ictimai-siyasi qəzet

Redaksiyanın ünvanı: AZ 1007 Bakı şəhəri, Koveroçkin küçəsi, 30a Tel.: (012) 404 22 00

Kapital bankın 1 saylı Nəsimi rayon filialı. Hesab nömrəmiz 160233070000 kod 200112. VÖEN 1300315681

LİSENZİYA: Seriya AV №022325 Qeydiyyat nömrəsi V 125

İndeks 0178